**FƏRİD İBRAHİMLİ**
**Gəncə Dövlət Universiteti**
**Heydər Əliyev küçəsi 429,**
**feridibrahimoglu@gmail.com**

# MÜASİR DİLÇİLİKDƏ "KONSEPT" VƏ "BƏDİİ KONSEPT" ANLAYIŞI

XÜLASƏ

Məqalə zaman konseptinin dərki və ifadə imkanlarından bəhs edir. Koqnitiv kateqoriyalar haqqında nəzəriyyələr müxtəlif elm sahələrini əhatə edir. Varlığın mövcudluq formalarından biri, məkanla yanaşı, zamandır.

Koqnitiv kateqoriyanın semantik istiqamətdə dərki koqnitiv vahidin (konseptin) daxili dəyişkənliyini müşahidə etməyə imkan verir. Məqalədə bu daxili dəyişkənlik bədii nümunələri müşahidə etməklə şərh edilib.

Həmçinin aparıcı konseptual nəzəriyyələrin müxtəlif istiqamətləri araşdırılmış, müqayisələr aparılmış, nəticədə koqnitiv fəaliyyətimiz nəticəsində yeni, daha mürəkkəb konseptlərin meydana çıxması müşahidə edilmişdir. Ancaq sözlərin təbiətdə metaforik olması fikrinə birmənalı olaraq yanaşsaq, bu qənaətə gəlirik ki, konseptlər cəmiyyətin inkişaf prosesində mikrokonseptlərə bölünür, bu bölünmə mütəmadi olaraq davam edir və formalaşan yeni konsept öz sərhədlərini – C.J.Filmorun nəzəriyyəsində çərçivələrini formalaşdıraraq, növbəti inkişaf prosesində özünün yeni mikrokonseptlərini formalaşdırması prosesindən bəhs edilir.

Konsept cəmiyyət tərəfindən zaman kimi fenomen hadisə və obyektlərin dərk edilməsi haqqında ensiklopedik məlumatları özündə müfəssəl əks etdirir. Konsepsiya sabit daxili formaya malikdir, fərdin və cəmiyyətin koqnitiv fəaliyyətinin nəticəsini əks etdirir. Konsept sabit daxili formaya malik olsa da, öz məntiqi sərhədlərini zamanla inkişaf etdirir, dəyişdirir. Zaman keçdikcə konsept öz koqnitiv struktur semantikasını daraldır, əksər hallarda isə genişləndirir.

Məqalənin tədqiqat obyekti 1960-cı illər Azərbaycan şeir dilidir. Zaman konsepti müxtəlif funksional üslubi fəaliyyətdə fərqli məzmunda əks olunur. Elmi təfəkkürdə sözün həqiqi mənası, bədii təfəkkürdə isə məcazi mənası konseptin ümumi xüsusiyyətlərini birləşdirir.

Tədqiqatın predmeti bədii mətndə zamanın öyrənilməsinin elmi-nəzəri məsələləri, poetik dildə zaman bədii konseptinin əsas təqdimat vasitələrini təhlil etməkdir. Bədii düşüncədə zamanın öyrənilməsi tədqiqat üçün əlverişli imkanlar yaradır. Obrazlı dil, zəngin məcazlar sistemi zamanın ifadəsində də özünü göstərir.

**Açar sözlər:** konsept, bədii konsept, koqnitiv, zaman, poeziya

Konsept cəmiyyət tərəfindən zaman kimi fenomen hadisə və obyektlərin dərk edilməsi haqqında ensiklopedik məlumatları özündə müfəssəl əks etdirir. Konsepsiya sabit daxili formaya malikdir, fərdin və cəmiyyətin koqnitiv fəaliyyətinin nəticəsini əks etdirir. Konsept sabit daxili formaya malik olsa da, öz məntiqi sərhədlərini zamanla inkişaf etdirir, dəyişdirir. Zaman keçdikcə konsept öz koqnitiv struktur semantikasını daraldır, əksər hallarda isə genişləndirir.

"G.Leybnits hər bir doğulan insanın beynində doğuşdan ibtidai fikirlərin olduğunu düşünürdü, başlanğıcda gizli olan fikirlər sonradan fərdin həyati təcrübəsi nəticəsində aktivləşərək inkişaf edir.

Bu doğuşdan gələn fikirlər bölünməz və tamdır, heç bir açıqlama ilə izah edə bilməsək də, ibtidai ideyalar və hislər məcmusu üzərində şəxsi təcrübəmizi inkişaf etdiririk. Leibnitz bu elementar düşüncə və hisləri "insan əlifbası" adlandırdı." [6, s.430].

Belə hesab edə bilərik ki, mövcud olan ilkin təsəvvürlər dilin konseptual nüvəsini təşkil edir. Beyində formalaşan ümumi nöqtələr insanın ətraf mühitlə əlaqəsi nəticəsində konseptual halqalar zənciri yaradır. Zaman, məkan kimi koqnitiv kateqoriyalar konseptual zəncirin halqalarını təşkil edir. Əslində hər bir konsept tamın hissələri şəklində meydana çıxır. Hissələr daha kiçik hissələr şəklində mikrokonseptlər formalaşdırır. Bədii mətndə zaman bildirən söz və ifadələri zaman konseptinin mikrokonseptləri hesab etmək olar. Onlar daxil olduğu mətnin strukturunda ayrıca konsept, yəni mikrokonsept təşkil edir. Bədii dildə obrazlılıq, ekspressivlik zaman konseptinin sərhədlərinin daxilində mikrokonseptləri formalaşdırır.

"İnkişaf mərhələsində olan təsviri çərçivələr özləri bir növ daha böyük konseptual strukturlarda iştirak etmək kimi potensialı olan sözlər və digər linqvistik formalar və kateqoriyalara aiddir, bunların hamısı yalnız bir şey bilməklə anlaşılır, bir cəmiyyətin iştirakçılarına bu cür kateqoriyalara ehtiyac duyduqlarını, belə kontekstlərin yaranacağı təcrübə və təcrübənin fonunu, kateqoriyalarını, kontekstlərini və arxa planlarını özləri tərəfindən başa düşüldüyünü müəyyənləşdirən parametrlər və ya kontekstlər haqqında prototip şərtləri – ilkin şərtləri formalaşdırır." [ 2, s.119 ] C.J.Filmorun Çərçivə nəzəriyyəsini daha aydın bu cür şərh edə bilərik ki, ilkin informasiya konseptləri modelləşdirmək üçün bir sistemdir. Çərçivələr konseptual strukturu təşkil etsə də, dünyanın, həyatımızın inkişafı ilə əlaqədar daim dəyişir. Bu nəzəriyyəni zamanın konseptual xəritəsinə tətbiq etsək, zamanın konseptual strukturunun öyrənilməsi baxımından daha faydalı olar. *Səhər* sözü ilə *səhərin gözü açılmamış*, *gecə* sözü ilə *gecəyarısı*, *axşam* sözü ilə *günəş dağların arxasında gizlənəndə* və s. nümunələrdə tarixən ilkin bilik olan səhər, gecə, axşam prototipləri insanların həyat tərzinin, bədii düşüncənin inkişafı ilə bağlı olaraq, çərçivə semantikasını genişləndirərək yeni konseptual strukturlar formalaşdırır.

"Konsept" fəlsəfi terminlərin izahlı lüğətində "lat. Conseptus – fikir, anlayış] ifadə edilmiş zehni obraz, ümumi fikir, anlayış – konseptualizm, məntiqi semantikada adın mənası" kimi izah edilir. [ 7, s.121 ]

Koqnitiv kateqoriyanın semantik istiqamətdə dərki koqnitiv vahidin (konseptin) daxili dəyişkənliyini müşahidə etməyə imkan verir. Ümumi semantik relevantlığa malik olan zaman konseptinin sərhədi öz daxilində dəyişkənlik nümayiş etdirir. Dildə zaman bildirən söz və ifadələri ədəd oxunda təsəvvür etsək, baş vermiş hər hansı hadisədən əvvəl və sonra baş vermiş hadisələr zaman bildirən müxtəlif söz və ifadələrin iştirakı ilə ədəd oxunda bir-birindən uzaqlaşmış nöqtələr yaradır, eyni zamanda daha yaxın nöqtələr formalaşdırır. Nöqtə dedikdə nöqtələr çoxluğu nəzərdə tutulur ki, burada da zamanın bədii, obrazlı ifadəsindən söz açılacaq. "Linqvistik qiymət çoxluqları dilin güc mərkəzlərindən biri olan məcazlar sayəsində məna sıçrayışları və addəyişmə, adköçürmə, məfhum mübadiləsi nəticəsində geniş yaradıcılıq, törədicilik perspektivləri açır, yeni hüdudlar, reallıqlar kəsb etməklə dərketmə imkanlarını genişləndirir. Bu cəhətdən məcazlara, metaforlara spesifik, kifayət qədər geniş və əhatəli, daim daha da genişlənə, özünü doğura bilən dərketmə mexanizmləri kimi yanaşmaq lazımdır." [1, s.504]

Sanki kədər mənim yox,
Mən kədərinki idim.
Neçə gündüz edirdi
Bağrımı didim-didim. [4, s.66]

Əli Kərimin 1969-cu ildə qələmə aldığı, 1960-cı illər poeziyasının bədii-estetik boyası görünən “Sanki...” şeirindən seçilmiş nümunədə zaman məfhumunun semantik yükünü daşıyan *gündüz* sözü ilə metafor yaratmışdır. “Metafora (məcaz) insanların əksəriyyəti üçün adi dildən çox qeyri-adi məsələ olan poetik təsəvvür və ritorik inkişaf qurğusudur. Üstəlik metaforaya yalnız dilin xarakteristikası kimi baxılır, düşüncə və fəaliyyətdən formalaşan söz və ifadələrdir. Bu səbəbdən, insanların əksəriyyəti düşünür ki, metafora olmadan mükəmməl şəkildə inkişaf mümkündür. Biz isə düşünürük ki, metafora yalnız dildə deyil, düşüncə və fəaliyyətin nəticəsində gündəlik həyatda yayılmışdır. Düşünürük ki, bizim adi konseptual sistemimiz təbiətdə metafora əsaslıdır.” [5, s.8] Konseptual metafora (məcaz) nəzəriyyəsinə görə düşüncəmiz metaforalarla zənginləşmə yolu keçir, başqa sözlə, biz məcazi mənada düşünürük, məcaziliklə obyektiv reallığı dərk edirik. Məsələn, gündəlik həyatımızda *vaxt yetişdi, haqq-hesab vaxtı gəldi, zamanın tələbi, səhər açıldı* və s. (nümunələri daha da artırmaq olar) ifadələr metaforik düşüncənin nəticəsi olaraq nitq prosesinin ayrılmaz hissəsidir.

Konseptual metafora nəzəriyyəsini daha aydın izah edən konseptual qarışıq nəzəriyyəsinə görə birləşmə meydana gəlir və mürəkkəb metaforik qarışıqlıqla nəticələnir. “Konseptual qarışıq nəzəriyyəsinə ümumi baxışımıza bir nümunə ilə başladıq. Aşağıdakı nümunə təbiətdə metaforikdir, lakin konseptual metafor nəzəriyyəsinə görə asanlıqla izah oluna bilməz:

O cərrah bir qəssabdır.

... Qəssablığın olduqca bacarıq və istedad tələb edən bir sənət olmasına rəğmən, bir cərrahı qəssab olaraq düşündüyümüzdə onun istedadsız olduğunu düşünürük. Bu konseptual metafora nəzəriyyəsi baxımından çətinlik törədir. Belə ki, nümunədə uyğunsuz görünən mənfi dəyərləndirmə mənbə sözün metaforik təbiətindən irəli gəlmir.” [3, s.401,402]

Deməli, dil və onun tikinti materialının məna strukturu yalnız sadə konseptlər yaratmır. Başqa sözlə desək, konseptual metafora nəzəriyyəsində olduğu kimi sözlər təbiətdə metaforikdir, lakin koqnitiv fəaliyyətimiz nəticəsində yeni, daha mürəkkəb konseptlərin meydana çıxmasına şərait yaradır. Ancaq sözlərin təbiətdə metaforik olması fikrinə birmənalı olaraq yanaşsaq, müşahidə edərik ki, metafor ilkin konseptual sistemdə mövcud olan qarşılaşdırmanın nəticəsində yaranır.

Zaman konsepti müxtəlif funksional üslubi fəaliyyətdə fərqli məzmunda əks olunur. Elmi təfəkkürdə sözün həqiqi mənası, bədii təfəkkürdə isə məcazi mənası konseptin ümumi xüsusiyyətlərini birləşdirir. Deməli, konsept probleminə iki istiqamətdə: koqnitiv strukturlarımız vasitəsi ilə birinci növbədə dərk olunan konsept və obrazlı, məcazi düşüncə ilə qavranılan, yaxud istifadə edilən bədii konsept şəklində baxa bilərik. Bədii konsept məcazilik imkanları ilə daim dəyişir, fərqli üslubi mühitlərdə özünü fərqli formalarda göstərir. Koqnitiv strukturlarımız vasitəsilə ilk növbədə dərk olunan konsept isə bədii konseptə nisbətən daha sabitdir. Bədii konsept isə fərdi üslubun imkanları hesabına daim zənginləşmədə olan məcazlar sistemi formalaşdırır.

“Nəğmələrin həsrətini
bir qırılmış teldən soruş!
Ömrün çətin yollarında
daşa ləpir salsa ayaq,
gün nə çəkdi,
ildən soruş!
Zülmətliyin möhnətini
kor söyləsin!
Bəm xalların fəryadını
zildən soruş!” [8, s.30]

R.Rzanın 1964-cü qələm aldığı "Soruş" şeirindən seçilmiş parçada zaman bədii konsepti məcazlar sisteminin əsasında dayanır. Şair *gün nə çəkdi, ildən soruş* deməklə zaman ifadə edən sözlərdən sintaktik-semantik strukturda meydana çıxmış personifikasiya – şəxsləndirmə yaratmışdır. Şeirdə *ömür* sözü birbaşa zaman ifadə etməsə də, şeirin ümumi məzmunu ilə səsləşərək özünün zaman məzmunu ilə məcaz sisteminin formalaşmasında iştirak etmişdir. Bədii-fəlsəfi düşüncədə zamanın ifadə vasitələrindən istifadə fikrin bədii gücünü artırmağa xidmət etmişdir.

Bir ay tamam oldu, düz bir ay,
bir gün
Gəldim qəbiristana...
anamla deyil,
Onun başdaşıyla görüşmək üçün.
Düzü gözlərimə inanmadım mən,
Bir heyrət dalğası ötdü sinəmdən.
Yaxşı yadımdadır...
dəfn ediləndə
Sonuncu qəbirdi anamın qəbri.
Qəbirlə doludur sağ-solu indi.

Nədən məzarlıqda vaxt düşmür yada?
Demə o burda da, burda da varmış!
Ölülər məskəni - məzarlıqda da
Zaman, qədəm-qədəm addımlayırmış!.. [9, s.20]

B.Vahabzadənin 1960-cı illərdə yazdığı "Zaman" şeirində *zaman* sözünün özünə bədii-fəlsəfi yanaşmış, buradakı *zaman* məfhumunu *müddət* sözünün paraleli kimi işlətmişdir. Təbiətdə hərəkətlər ardıcıllığı kimi fakt və hadisələrin müqayisəsində qavradığımız zaman şeirdə öz konseptual xüsusiyyətinə uyğun *zaman, qədəm-qədəm addımlayırmış* ifadəsi ilə metafor yaratmışdır. Bəllidir ki, metaforun yaranması üçün iki obyektdən birinin xüsusiyyəti digəri üzərinə köçürülür, burada xüsusiyyəti köçürülən gizli qalaraq, mətndə konsept təşkil edən sözün emosional-ekspressiv xüsusiyyətini formalaşdırır, başqa sözlə desək, bənzərlik vasitəsi ilə fikrin təsir gücü artırılmışdır. Şeirdə şairin bədii təfəkküründə yer alan zaman konseptini təxminən bir aylıq vaxt ərzində baş vermiş fakt və dəyişikliklərin sadalanması vasitəsi ilə qavrayırıq.

Koqnitiv orqanlar olan beyin, görmə, sinir sistemi və ümumilikdə insanın ətraf mühiti dərk etmək üçün çalışan bütün orqanları koqnitiv kateqoriyaları dərk etməyə səy göstərir. Dildə mövcud olan semantik sistem zaman və məkan hüdudlarında dərk edilir. İstənilən semantik yük (söz) məkan və zamanın qarşılıqlı əlaqəsi fonunda qavranılır. Burada *semantik yük* ifadəsi təsviri xarakter daşıyır. Ümumiyyətlə, zaman və məkandan xaric olan heç bir şey şüurda inikas edə bilmir. Deməli, zaman da məkan kimi koqnitiv kateqoriya olaraq, özündə dil sisteminin bütün semantik yükünü, məfhumlarını cəmləşdirir.

## Ədəbiyyat

1.Abdullayev S. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı: Victory, 2013, 596 s.
2.Charles J.F. Frame Semantics. The Linguistic Society of Korea, 1982, 137 p
3.Evans V. and Green Melanie. Cognitive Linguistics. Edinburgh University Press Ltd, 2006, 851 p.
4.Kərim Ə. Seçilmiş əsərləri. I c., Bakı: Azərnəşr, 1991, 334 s.

5.Lakoff G. and Johnsen M. Metaphors we live by. London: The university of Chicago press, 2003, 193 p.
6.Leibnitz G.V. (2083) Papers: in 4 volumes. / G.V. Leibnitz; editor, introduction and comments by I.S.Narskiy. – M.: Mysl, 1983. – V. 2. New Experiences in Human Understanding. («Philosophic Heritage» series.)
7.Nəzərova A. Fəlsəfə Terminlərin İzahlı lüğəti. Elm və Təhsil, Bakı-2014, səh. 224
8.Rza R. Seçilmiş əsərləri. I c., Bakı: Öndər Nəşriyyat, 2005, 304 s.
9.Vahabzadə B. Seçilmiş əsərləri. I c., Bakı: Öndər Nəşriyyat, 2004, 328 s

**Farid Ibrahimli**

## Explanation of "concept" and "artistic concept" in modern language

### Summary

The article deals with the conceptual understanding of the concept of time. Theories about cognitive categories cover different sciences. One of the forms of existence is the time, along with space.

The semantic interpretation of the cognitive category allows us to observe the internal variability of the cognitive unit (concept). In the article, this internal variability has been interpreted by observing artistic specimens.

Various trends of the leading conceptual theories were also examined, comparisons were made, resulting in new, more complicated concepts as a result of cognitive activity. However, if we take a closer look at the idea that words are metaphorical in nature, we come to the conclusion that the concepts are divided into microconseptics in the community development process, and this division continues on a regular basis and the new concept is shaping its boundaries - forming frameworks in the theory of Filmor and describing the process of formulating its new microconceptions in the next development process .

The concept reflects the encyclopedic information about phenomenon events and objects, as time goes by the society. The concept has a solid internal form, reflects the result of the individual and society's cognitive activity. Although the concept has a solid internal form, it develops and transforms its logical boundaries over time. Over time, the concept narrows its cognitive structural semantics, and in most cases expands.

The object of the article is the Azerbaijani poetry in the 1960s. The concept of time is reflected in different content in different functional styles. In scientific thinking, the true meaning of the word, and the figurative meaning in artistic thought combines the general features of the concept.

The subject of the research is to analyze the scientific-theoretical issues of time study in the art text, and to analyze the basic means of promoting time art in the poetic language. Study of time in artistic thinking creates favorable opportunities for research. The symbolized language, the rich metaphorical system, also shows itself in the expression of time.

**Key words:** concept, artistic concept, cognitive, time, poetry

**Фарид Ибрагимли**

## Объяснение «концепции» и «художественный концепт» в современном языке

**Резюме**

Статья посвящена концептуальному пониманию понятия времени. Теории о когнитивных категориях охватывают разные науки. Одной из форм существования является время наряду с пространством.

Семантическая интерпретация когнитивной категории позволяет нам наблюдать внутреннюю изменчивость когнитивной единицы (концепта). В статье эта внутренняя изменчивость была интерпретирована путем наблюдения за художественными образцами.

Были также рассмотрены различные направления ведущих концептуальных теорий, проведены сравнения, в результате которых появились новые, более сложные понятия в результате познавательной деятельности. Однако, если мы придем к выводу, что слова носят метафорический характер, мы придем к выводу, что концепции в процессе развития общества делятся на микроконцепции, и это разделение продолжается на регулярной основе, а новая концепция формирует свои границы - формируя свои рамки в теории К.Дж.Филмора и в процессе формулирования его новых микро- упоминается.

Понятие отражает энциклопедическую информацию о явлениях, событиях и объектах, которые время идет обществом. Понятие имеет прочную внутреннюю форму, отражает результат познавательной деятельности человека и общества. Хотя концепция имеет прочную внутреннюю форму, она со временем развивает и трансформирует свои логические границы. Со временем концепция сужает когнитивную структурную семантику и в большинстве случаев расширяется.

Объектом статьи является азербайджанская поэзия 1960-х годов. Концепция времени отражается в разном содержании в разных функциональных стилях. В научном мышлении истинное значение слова и образное значение в художественной мысли объединяют общие черты концепции.

Предметом исследования является анализ научно-теоретических вопросов изучения времени в художественном тексте, а также анализ основных способов продвижения искусства времени на поэтическом языке. Изучение времени в художественном мышлении создает благоприятные возможности для исследований. Символизированный язык, богатая метафорическая система, также проявляется в выражении времени.

**Ключевые слова:** концепт, художественный концепт , когнитивный, время, поэзия

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 26.07.2019
Filologiya elmləri doktoru İlham Tahirov tərəfindən çapa tövsiyə olunmuşdur.